**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№** 044/538

**Bakı şəhəri** "24" 07 **2026-cı il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, Hindistan Respublikasının Himaçal Pradeş (Himachal Pradesh), Dehli (Delhi), Çhattisqarh (Chattisgarh), Orissa (Orissa) ştatlarında **nodulyar dermatit** xəstəliyi, Çex Respublikasının Yihomoravsk (Jihomoravský) diyarında, Hindistan Respublikasının Madhya-Pradeş (Madhya Pradesh), Karnataka (Karnataka) ştatlarında, Latviya Respublikasının Vidzeme (Vidzemes) regionunda isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Nodulyar dermatit xəstəliyi üzrə:**

**1.1.** 05.09.2022-ci il tarixli 050/225 nömrəli qərarla Hindistan Respublikasının Himaçal Pradeş, Dehli, Çhattisqarh, Orissa ştatlarına tətbiq edilmiş məhdudiyyət.

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.** 07.11.2024-cü il tarixli 072/392 nömrəli qərarla Çex Respublikasının Yihomoravsk diyarına tətbiq edilmiş məhdudiyyətlər;

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

29.07.2026

**1.3.** 21.02.2025-ci il tarixli 016/422 nömrəli qərarla Hindistan Respublikasının Madhya-Pradeş ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Hindistan Respublikasının Karnataka ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 04.06.2025-ci il tarixli 034/440 nömrəli qərarla Latviya Respublikasının Vidzeme regionuna tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu qərarın 1-ci bəndində qeyd olunan yoluxucu heyvan xəstəlikləri üzrə adıçəkilən ölkələrin müvafiq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması barədə, həmin ərazilərdən baytarlıq nəzarətində olan malların Azərbaycan Respublikasına idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
29.07.2026